# Zəfər günlərini yaşadığımız üçün xoşbəxt xalqıq

**“Dəmir yumruq” əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qazandığı şanlı qələbə müasir müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin əyani təsdiqidir. Bu münasibətlə keçirilən Zəfər paradı 44 günlük haqq savaşımızda Silahlı Qüvvələrimizin güc-qüdrətini, həmçinin xalq-Prezident-ordu birliyinin sarsılmazlığını bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi.**





Şanlı Ordumuz işğal altında olan ərazilərimizi birdəfəlik işğaldan azad etməklə 30 il həsrət qaldığımız Vətən torpaqlarında indi artıq üçrəngli Azərbaycan bayrağı dalğalanır. Bu isə hər birimizə böyük qürur və fəxarət hissi yaşadır.

Zəfər paradında nümayiş etdirilən texnika və silah-sursat ordumuzun maddi-texniki bazasının zənginliyindən xəbər verirdi. Eyni zamanda, bu, dövlətimizin başçısı tərəfindən hərbi sahəyə göstərilən diqqət və qayğının nəticəsi kimi diqqət çəkirdi. Hər kəs Azərbaycan Ordusunun arsenalının müasir silahlarla təchiz edildiyinin əyani şahidi olurdu.

Onu da qeyd etmək yerinə düşər ki, Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsi zamanı göstərdiyi döyüş taktikası, istifadə olunan texnikalar bütün dünyada da maraqla izlənildi. Bu gün iftixarla deyə bilərik ki, Azərbaycanın Silahlı Qüvvələri hərbi əməliyyatlar zamanı ən yüksək səviyyədə innovativ yenilikləri tətbiq edən ordudur.

Məhz bunun nəticəsi idi ki, müharibənin gedişində Silahlı Qüvvələrimiz möhtəşəm uğurlara imza atdı, döyüş meydanında öz üstünlüyünü dəfələrlə sübut etdi. Erməni tərəfinin təqribən 30 il ərzində işğal olunan torpaqlarda yaratdığı müdafiə xətlərini, mühəndis qurğularını şücaətlə dağıtdı, komanda məntəqələrini, çox sayda hərbi texnikasını, canlı qüvvəsini məhv etdi. Bu, Silahlı Qüvvələrimizin dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsinin əbəs deyilmədiyini təsdiqlədi.

Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: “Ölkələrin hərbi potensialının dəyərləndirilməsi ilə məşğul olan qurumların vaxtaşırı dərc etdiyi reytinqlərə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır. Həm peşəkarlıq, həm təlim, həm döyüş qabiliyyəti, ən başlıcası mənəvi döyüş ruhu, əlbəttə ki, Azərbaycan Ordusunun texniki təchizatı da çox cəhətdən bizim uğurumuza kömək edib…”.

Azərbaycan Silahlı Qüvvələri bu döyüşlərdə dövlətimizin başçısının vurğuladığı kimi, dünyanın ən güclü orduları sırasında olduğunu təsdiq etdi. Ordu bölmələrimiz harada olur-olsun, döyüşləri planı şəkildə apardı, xaotikliyə yol vermədi. Döyüş əməliyyatları haqqında Ali Baş Komandan müntəzəm məlumatlandırıldı. Əməliyyatların icrası, yaşayış məntəqələrinin azad olunması planlı şəkildə açıqlandı.

Azərbaycan döyüş əməliyyatları zamanı haqqa, ədalətə söykəndi, beynəlxalq konvensiyalara əsaslandı. Ermənistan isə uğursuzluqdan isterikaya düşərək Azərbaycanın döyüş bölgəsində yerləşməyən rayon və şəhərlərində dinc əhalini, qadınları və uşaqları raket və artilleriya zərbələri ilə atəşə tutdu. Lakin buna baxmayaraq, Azərbaycan Ordusu düşmənin yalnız hərbi obyektlərini hədəfə aldı, hətta mülki əhalinin ziyan görməməsi üçün onları bu cür obyektlərdən uzaq durmağa çağırdı.

Vətən müharibəsində apardığımız azadlıq mübarizəsi zamanı silah-sursatını qoyub qaçan, fərarilik edən işğalçı Ermənistan ordusuna məxsus xeyli texnika və silah-sursat hərbi qənimət olaraq götürüldü, bir hissəsi isə məhv edildi. Bakının Azadlıq meydanından keçən hərbi texnikaların sırasında vaxtilə işğalçının istifadəsində olan yararlı və yararsız texnikaların da yer alması sevindirici məqam idi. Bu, milli qürur və iftixar hissi doğururdu.

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri və dövlətimizin başçısı İlham Əliyevlə birlikdə Zəfər paradını izləməsi, həmçinin ölkələrimiz arasında müxtəlif sahələrə dair bir sıra mühüm sənədlərin imzalanması isə Azərbaycanla Türkiyə arasındakı dostluq və qardaşlığın daha bir əyani təzahürü oldu.

Zəfər paradında xalqımızın yaşadığı qürur yaddaşlara əbədi həkk olundu. İndi əminliklə deyə bilərik ki, artıq tarixi bir missiya başa çatdı və Qarabağ problemi beynəlxalq hüququn tələblərinə uyğun şəkildə, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edildi. Bizə bu möhtəşəm qələbə sevincini Ali Baş Komandanımız və rəşadətli Azərbaycan Ordusu, Vətən torpaqları uğrunda canlarından keçən igid oğullarımız yaşatdılar.

***Şair RAMALDANOV,***
***ehtiyatda olan polkovnik***